# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ

# Q A N U N U

**“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır**:

**Maddə 1.** “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikası Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11-ci maddənin ikinci hissəsində “sənədlərlə” sözü “qanun və qərarlarla” sözləri ilə, “Məclisinin fərman və” sözləri “Məclisi sədrinin” sözləri ilə əvəz edilsin;

1.2. 21-ci maddə üzrə:

1.2.1. birinci hissədə “3330” rəqəmləri “15000” rəqəmləri ilə əvəz edilsin;

1.2.2. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

“Ali Məclis sədrinin birinci müavini 13000 manat, Ali Məclis sədrinin müavini 12000 manat, Ali Məclisin komitə sədri 9000 manat, Ali Məclisin komitə sədrinin müavini 8000 manat, Ali Məclisin deputatı 7000 manat məbləğində aylıq vəzifə maaşı alırlar.”;

1.2.3. üçüncü hissə ləğv edilsin.

**Maddə 2. Keçid müddəası**

Bu Qanun qüvvəyə minənədək bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə ödənilmiş vəzifə maaşı, əlavə, mükafat və digər ödənişlər onların bu Qanunla müəyyən edilən aylıq vəzifə maaşına daxil edilir.

**Maddə 3.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **BƏXTİYAR MƏMMƏDOV**

Naxçıvan şəhəri, 21 aprel 2026-cı il

№ 19-VII QN